# Qazaxda Əliağa Şıxlinskinin yubileyi qeyd olundu

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev general, görkəmli hərbi xadim Əliağa Şıxlinskinin 150 illik yubileyinin keçirilməsi haqqında 20 noyabr 2014-cü il tarixli Sərəncam imzalamışdır. Bu sərəncamın qəbul edilməsi, ölkə Prezidenti cənab İlham Əliyevin xalqımızın tarixi keçmişinə, o cümlədən hərb tarixinə göstərdiyi diqqət və qayğının əyani təzahürüdür.**



Fevralın 7-də Ə.Şıxlinskinin 150 illik yubileyinə dair hazırlanmış tədbirlər planına uyğun olaraq Qazax şəhərindəki Olimpiya-İdman Kompleksində Azərbaycan Respublikası Müdafiə Nazirliyinin və Qazax Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə təntənəli mərasim keçirilmişdir. Əvvəlcə ümummilli lider Heydər Əliyevin əziz xatirəsi anılmış və abidəsi önünə gül-çiçək dəstələri qoyulmuşdur. Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev, millət vəkilləri Əhməd Vəliyev, Xanhüseyn Kazımlı, akademik Teymur Bünyadov, kinorejissor, əməkdar incəsənət xadimi Ziya Şıxlinski, Qazax Xeyriyyə Cəmiyyətinin sədri Vidadi Bayramov və başqaları dəvət olunmuş qonaqlar sırasında idi. Tədbirdə Vətən haqqında, hərbi-vətənpərvərlik ruhunda fikirlər söylənmiş, şeirlər səslənmişdir.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərov, müdafiə nazirinin müavini və başqa qonaqlar çıxış etdilər. Ayaz Əsgərov bildirmişdir ki, Qazax rayonu bu gün əlamətdar və tarixi günlərindən birini yaşayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin görkəmli hərb xadimi, tanınmış hərbçi alim Əliağa Şıxlinskinin 150 illik yubileyinin keçirilməsi haqqında Sərəncamına əsasən bu gün respublikamızda yubiley tədbirlərinə start verilir. Bu münasibətlə Qazax rayonunun bütün ictimaiyyəti adından sizi general Şıxlinskini dünyaya bəxş edən, qədim, eyni zamanda, gündən-günə yeniləşən bu gözəl diyarda ürəkdən salamlayır, dəvətimizi qəbul edərək bu möhtəşəm tədbirdə bizimlə bir yerdə olduğunuz üçün hər birinizə dərin minnətdarlığımı bildirir və “xoş gəlmisiniz” deyirəm.

Qazax mahalı elm, mədəniyyət, ədəbiyyat, incəsənət xadimləri, eləcə də görkəmli hərbi xadimləri ilə həmişə fəxr etmişdir. Möhtərəm Prezidentimizin yuxarıda göstərilən Sərəncamında qeyd edilir ki, 20-ci əsrin əvvəllərindən etibarən irimiqyaslı hərbi əməliyyatların iştirakçısı kimi general Əliağa Şıxlinski döyüş meydanlarındakı şücaətləri və artilleriya nəzəriyyəsinə gətirdiyi yeniliklər ilə hərb tarixinə parlaq səhifələr yazmışdır. O, Azərbaycan Xalq Cümhuriyyətinin mühüm dövlət təsisatları yaradılarkən milli qoşun hissələrinin təşkilində, müstəqil ordu quruculuğunda müstəsna fəaliyyət göstərmiş, sonrakı dövrlərdə də hərbi andına sadiq qalaraq ölkənin Silahlı Qüvvələrinin formalaşmasına töhfələr vermişdir. Əliağa Şıxlinski 1865-ci il martın 3-də Yelizavetpol quberniyasının, Qazax qəzasının Qazaxlı (indiki Aşağı Salahlı) kəndində anadan olub. 1883-cü ildə rus ordusunda hərbi xidmətə başlayan Əliağa Şıxlinski 1886-cı ildə Peterburq artilleriya məktəbini əla qiymətlərlə bitirib, 1904-1905-ci illər rus-yapon müharibəsində əsl qəhrəmanlıq nümunəsi göstərib, az vaxtda çar ordusunda general-mayor rütbəsinə yüksəlib. Qısa müddətdə çar Rusiyası ordusunun aparıcı mütəxəssislərindən, hərb elminin görkəmli simalarından birinə çevrilib.

Çıxışlardan sonra Vətən haqqında şeirlər və Üzeyir Hacıbəyovun Əhməd Cavadın sözlərinə bəstələdiyi “Çırpınırdı Qara dəniz” mahnısı səsləndirilib.

**Vəli VƏLİYEV,**
**“Respublika”.**



